# Beynəlxalq birliyin nümunəsi - VIII Qlobal Bakı Forumu

**Dünyada sülhün, insanı qorumağın və onun rifahı üçün çalışmağın alternativi yoxdur. Bu gün Yer üzündə sağlam düşüncənin əhatəsi genişlənir. Xoş niyyətlər ətrafında birləşən insanların sayı artır.**

İlk baxışdan bəlkə fərqində olmasaq belə bu düşüncə son onilliklərdə dünyamızda çox şeyi dəyişib. Belə bir mənzərəni yaradan ən mühüm amillərdən mühümü isə müxtəlif aktual məsələlərin həlli məqsədilə qlobal əməkdaşlığa marağın getdikcə artmasıdır.

Artıq hər kəs görür və bilir ki, bütün bəşəriyyəti təhdid edən ayrı-ayrı problemlərin həlli, birgəyaşayış normalarının qorunması, bu mühitdə qazanılmış mənəvi nailiyyətlərin daha da inkişafı, cəmiyyətlərin gələcək tərəqqisi üçün geniş imkanların yaradılması təkcə bir ölkənin bacardığı iş deyil. Bundan ötrü dövlətlərin, cəmiyyətlərin bir araya gəlməsinə, liderlər, tanınmış elm xadimləri, alimlər, dünyanın siyasi, mədəni elitasının nümayəndələri arasında dialoqların aparılmasına ehtiyac var.

Bir Azərbaycan vətəndaşı olaraq qürur duyduğumuz reallıq isə ondan ibarətdir ki, bu gün dünyada sülhün qorunması, təxribatlara, təhdidlərə, çətinliklərə rəğmən insanın rifahı naminə əldə edilmiş nailiyyətlər həm də bizim ölkəmizin, dövlət rəhbərimizin fədakar əməyinin nəticəsidir. Bəşəriyyət üçün bu nailiyyətləri yaradan faktlardan biri də çoxumuzun əsl mahiyyətini bəlkə də heç dərindən anlamadığımız, sadəcə ölkəmizdə keçirilən silsilə beynəlxalq tədbirlər kimi yanaşdığımız qlobal forumlardır. Bu forumlarda aparılan müzakirələrdir. Dünyanın nüfuzlu söz sahibləri arasında gedən fikir və ideya mübadilələridir. Əldə edilən razılaşmalardır. Bakıdan bütün bəşəriyyətə ünvanlanan çağırışlardır.

Yeni minilliyin əvvəllərindən dünyamız üçün son dərəcə faydalı təşəbbüslərin yerinə yetirilməsi missiyasını öz üzərinə götürərək müxtəlif beynəlxalq tədbirlərə, humanitar forumlara, sivilizasiyalararası dialoq platformalarına uğurla evsahibliyi edən Azərbaycan bütün dünyada sülhün qorunması, insan təhlükəsizliyi, mədəniyyətlərin təması məkanı kimi tanınıb.

Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də keçirilən “COVID-19-dan sonrakı dünya” mövzusunda növbəti Qlobal Bakı Forumu bu tarixi missiyanın davamıdır.

Mövzudan da göründüyü kimi, indiyə qədər keçirilmiş ənənəvi forumların hər biri dövrümüzün ayrı-ayrı aktual problemlərinə həsr edilib. Aparılan diskussiyalara, əldə edilən nəticələrə əsaslanaraq bəşəriyyətin bu günü və gələcəyi naminə yerinə yetirilməsi zəruri olan vəzifələr aktuallaşdırılıb və icraya yönəldilib. Dünyanı vahid məkan, bəşəriyyəti isə bir cəmiyyət kimi görmək istəyinin ifadəsi olan bu cür tədbirlər yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verir.

Uğurla başa çatan və bir sıra tarixi məqamları ilə yadda qalan bu forumun məqsədləri Azərbaycan Prezidentinin tədbirin açılış mərasimindəki çıxışında ifadə olunurdu.

## Aparıcı platforma

Qlobal Bakı Forumu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən ənənəvi tədbirdir. Sonuncu da daxil olmaqla 2013-2021-ci illər arasında təşkil olunan bu silsilədən sayca 8-ci forumdur. Bu müddət ərzində Qlobal Bakı Forumu dövlət rəhbərimizin də vurğuladığı kimi, qlobal siyasətə aid təxirəsalınmaz və vacib məsələlərin müzakirəsi baxımından aparıcı platformalardan biri kimi tanınıb.

“Sadəcə, bu gün olan iştirakçıların, çıxışçıların, foruma müraciət edəcək mötəbər şəxslərin siyahısına baxmaq kifayət edər ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nisbətən qısa müddətdə ziyalıların, dövlət məmurlarının, siyasətçilərin, jurnalistlərin, dövlət xadimlərinin və vətəndaş cəmiyyəti üzvlərinin biliklərini, təcrübəsini və baxışını toplayan, böyük potensialı olan çox azsaylı aparıcı beynəlxalq təsisatlardan birinə çevrildiyini deyək” - Azərbaycan Prezidenti çıxışında qeyd etdi.

İki gün davam edən Qlobal Bakı Forumunda beynəlxalq səviyyədə ciddi əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak edirdilər. Hibrid formatda təşkil edilən tədbirə 300-ə yaxın qonaq canlı və onlayn qaydada qoşulmuşdu.

Forumun mövzusunun “COVID-19-dan sonrakı dünya” mövzusuna həsr edilməsi isə heç də təsadüfi olmayıb, pandemiyanın ilk aylarından Azərbaycanın bu problem üzrə beynəlxalq səviyyədə apardığı silsilə fəaliyyətdən, qarşıya qoyduğu və icrasına çalışdığı qlobal təşəbbüslərdən irəli gəlir. Ölkəmiz bu istiqamətdə fəaliyyətini yeni mərhələlər üzrə davam etdirir və bəşəriyyətə pandemiya ilə bağlı problemlərin həllində fayda verməyə çalışır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının hazırkı sədri olaraq ötən il Azərbaycanın təşəbbüsü ilə aprel və may aylarında hər iki təşkilatın COVID-ə həsr olunmuş xüsusi Zirvə görüşü keçirildi. Bunlar, sırf pandemiya mövzusuna həsr edilmiş, bu cür geniş formatda təşkil olunan ilk beynəlxalq tədbirlər idi. Qoşulmama Hərəkatının sammitində Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəkləndi. Həmin xüsusi sessiya keçən ilin 3 və 4 dekabr tarixlərində baş tutdu.

## Pandemiyadan sonrakı dünyaya baxış

Pandemiya bu gün də qlobal gündəmin demək olar ki, ən aktual məsələsidir və bu problemdən irəli gələn bir sıra məsələlərin müzakirəsini, çıxış yollarının birgə axtarılmasını zəruri edir. Hazırda bir çoxları postpandemiya dövrü barədə danışmağa başlasalar da, bəşəriyyətin bu problemin hansı mərhələsində olduğu hələ tam aydın deyil. Eyni zamanda müxtəlif ölkələrin bu məsələyə yanaşması da fərqlidir.

Azərbaycan pandemiya böhranının baş qaldırdığı ilk vaxtlardan həm respublika daxilində, həm beynəlxalq səviyyədə bu istiqamətdə fəal addımlar atan ölkə olaraq proseslərin gedişini də ciddi nəzarətdə saxlayır və mövqeyini reallıqlara uyğun müəyyənləşdirir. Respublikamızda bu ilin 18 yanvarından başlayaraq müvafiq yaş qrupları üzrə əhalinin peyvəndlənməsinə start verilmişdir. Azərbaycan regionda bu prosesə başlayan ilk ölkələrdən olmuşdur. Dövlət rəhbərimiz Qlobal Bakı Forumunun başlandığı tarixə qədər yaşı 18-dən yuxarı olan əhalinin 60 faizindən çoxunun artıq iki dozanı alması faktını forum iştirakçılarının diqqətinə çatdırdı. Nisbətən qısa müddət ərzində ölkəmizdə ümumi çarpayı sayı demək olar ki, 4 min olan 13 yeni dövlət xəstəxanasının açıldığını, pandemiya ilə mübarizə aparmaq üçün ümumən 46 dövlət xəstəxanasının ayrıldığını yada saldı. Məhz vəziyyətə ciddi nəzarət nəticəsində hazırda Azərbaycanda qapanma yoxdur. Əsas məhdudiyyət daxili məkanlarda maska taxmaq məcburiyyəti ilə bağlıdır. Azərbaycan əvvəlki qapanmaların ölkə iqtisadiyyatına, insanlarımızın sosial durumuna ziyanlı təsirlərini minimallaşdırmaqdan ötrü də ardıcıl tədbirlər həyata keçirdi. İşini itirmiş, qapanmalardan əziyyət çəkmiş insanlar üçün 2020-ci və 2021-ci illərdə ümumi dəyəri 2,9 milyard ABŞ dolları olan sosial-iqtisadi yardım paketi ayrıldı.

## Xalqımız peyvəndlənmənin vacibliyini bilir

Aparılan dövlət siyasəti sayəsində ölkəmizdə əhalinin peyvəndlənməsi səviyyəsi də kifayət qədər yüksəkdir. Eyni zamanda vətəndaşlarımızın bu məsələyə məsuliyyətli münasibəti dövlət siyasətinin öz məqsədinə çatmasına kömək göstərir. “...Əhalimizin bu məsələyə çox məsuliyyətlə yanaşması bizdə məmnunluq doğurur və peyvəndləmə məcburi deyil. Bizdə hər hansı bir antipeyvəndləmə kampaniyası və ya hətta antipeyvəndləmə tendensiyası yoxdur. Azərbaycan xalqı peyvəndləmənin vacibliyini anlayır və bu, bizim işimizi xeyli asanlaşdırır”, - deyə Prezident İlham Əliyev qlobal forum iştirakçılarının nəzərinə çatdırdı.

Peyvəndlərlə bərabər və universal çıxış, həmçinin peyvəndlərin ədalətli bölgüsü ilə bağlı BMT-nin İnsan Hüquqları Şurasında irəli sürülən təşəbbüs də məhz Azərbaycana məxsusdur. Belə ki, ölkəmiz qlobal səviyyədə “peyvənd millətçiliyi” və vaksinlərin ədalətsiz bölgüsü haqqında danışan ilk dövlətlərdən olmuşdur. Bu gün dünyada peyvəndlənmənin ümumi vəziyyəti, bu sahədəki qeyri-bərabərliklə bağlı mənzərənin təsviri üçün bircə reallığı diqqətə çatdıraq ki, hazırda bəzi ölkələrin artıq peyvəndin üçüncü dozasının tətbiqini planlaşdırmasına rəğmən digər ölkələrdə vaksinasiya səviyyəsi çox aşağıdır. Ona görə də Azərbaycan Prezidenti bu sahədə bərabər imkanların yaradılması üçün bu məsələnin müzakirəsinin vacibliyini qeyd etdi. Çünki pandemiya qlobal bir bəladır. Hansısa ölkədə peyvəndlənmənin uğurla aparılması, əhalinin tam şəkildə bu prosesə cəlb olunması hələ problemin həlli demək deyil. Problemin tam həlli bütün dünya ölkələri üçün peyvəndlərin əlçatan olmasından, ümumən dünya əhalisinin peyvəndlənməsindən və yoluxma risklərinin aradan qaldırılmasından keçir. Azərbaycanın da ötən ildən irəli sürdüyü qlobal təşəbbüslərlə nail olmaq istədiyi əsas məqsədi məhz budur.

## Azərbaycan yardımını əsirgəmir

Ölkəmiz bu istiqamətdə təkcə təşəbbüslər irəli sürmür. Eyni zamanda problemin birgə həlli üçün səmərəli üsullar, texniki imkanlar təqdim edir. Məsələn, Azərbaycanın təşəbbüsü ilə COVID-19-un müalicəsi üzrə məlumat bazası yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv ölkələrdə həmin məlumat bazasından istifadə edir. Bu isə öz növbəsində ÜST-ə öz dəstəyini düzgün planlaşdırmağa və proqnozlaşdırmağa kömək edir. Azərbaycan ehtiyacı olan ölkələrə bu ağır dövrdə yardımlarını da əsirgəmir. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan 30-dan artıq ölkəyə maliyyə və humanitar yardımı göstərib. Təmənnasız olaraq bir neçə ölkəni peyvənd dozaları ilə təmin edib. Eyni zamanda yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq 10 milyon dollar həcmində maliyyə yardımı ayırıb. Azərbaycan Prezidenti bildirdi ki, bunlar bizim qlobal səviyyədə atdığımız addımlardır. Beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsi və dünyanın aparıcı dövlətlərinin məsuliyyətli yanaşma nümayiş etdirməsi bu xəstəliyin öhdəsindən gəlməyə yardım edəcək.

## Gələcəyə nəzər salmalıyıq

Azərbaycan Prezidenti Vətən müharibəsindəki zəfərimizdən sonra regionda yaranmış yeni reallıqları da nəzərə çarpdırdı. Yada saldı ki, I Qlobal Bakı Forumundan başlayaraq hər yeddi forumda Ermənistan-Azərbaycan münaqişəsi mövzusunda danışıb: “Bu gün isə demək istəyirəm ki, münaqişə həll edilib. Azərbaycan özü münaqişəni həll etdi. Azərbaycan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri özü yerinə yetirdi”.

Prezident İlham Əliyev Ermənistanın illər ərzində Azərbaycan ərazilərində törətdikləri vandalizm əməllərini diqqətə çatdırdı. Hazırda azad edilmiş şəhər, qəsəbə və kəndlərimizin çoxunda tam dağıntıların baş verdiyini, bir dənə də salamat binanın qalmadığını, işğal illəri ərzində erməni vandallarının bütün tarixi abidələri, 67 məsciddən 65-ni dağıtdıqlarını, evləri, həyətləri, ictimai binaları və digər tikililəri yerlə-yeksan etdiklərini və bütün bunların əslində barbarlığın sübutu olduğunu bildirdi. Azərbaycan Prezidenti hazırda işğaldan azad olan yurdlarımızda gedən bərpa proseslərindən də danışdı. Ermənistanın işğalından əziyyət çəkmiş məcburi köçkünlərimizin, bir milyondan çox insanımızın qısa müddət ərzində həmin yerlərə qayıdacağına əminliyini ifadə etdi. “Müharibə və onun nəticələri onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalır. Siz öz məqsədinizə sadiq olmalısınız, yaxşı hazırlaşmalısınız, beynəlxalq hüquq çərçivəsinə malik olmalısınız və insanların yüksək səviyyədə iradəli olmasına nail olmalısınız. Bütün həmin meyarlar, o cümlədən hərbi imkanlarımız münaqişənin həllində əsas amil oldu. Hazırda münaqişə bitib və qeyd etdiyim kimi, yenidənqurma başlayıb. İndi biz postmünaqişə vəziyyətindəyik və biz Ermənistana bir sıra təkliflər etmişik ki, sülh müqaviləsi üzərində işləməyə başlayaq, çünki biz müharibə deyil, sülh, gələcək haqqında danışmaq istəyirik.

Əfsuslar olsun ki, bu təklifə hələ də cavab verilməyib. Eyni zamanda biz hər iki ölkənin ərazi bütövlüyünü tanımaqla, dövlət sərhədlərimizin delimitasiyası və demarkasiyası üzərində işə başlamağı təklif etdik. Bu, həmçinin beynəlxalq hüquq normalarına və normal davranışa uyğundur. Bu təklifə də hələ baxılmayıb”, - dedi Azərbaycan Prezidenti İlham Əliyev.

Dövlət rəhbərimiz onu da vurğuladı ki, təxminən 30 illik işğalın əziyyətlərinə, ərazilərimizdə törədilmiş vandalizm və barbarlığa baxmayaraq, Azərbaycan maksimal konstruktivlik nümayiş etdirir. “Biz gələcəyə nəzər salmalıyıq. Biz regionun təhlükəsiz, proqnozlaşdırılan və genişmiqyaslı əməkdaşlığa hazır olmasını təmin etməliyik. Bu barədə müxtəlif təkliflər var. Ola bilsin siz onlar haqqında eşitmisiniz. Hesab edirəm ki, hər şey Ermənistanın mövqeyindən asılı olacaq, çünki bizim mövqeyimiz tam aydındır. Bu gün bir daha deyirəm ki, biz hazırıq sülh danışıqlarına başlamağa, sülh razılaşması üzərində çalışmağa, səhifəni çevirməyə və sərhədin delimitasiyasına hazırıq”,- dedi ölkə rəhbərimiz.

## Əməkdaşlıq zamanıdır

Azərbaycan Prezidenti məsələnin qlobal əhəmiyyətini nəzərə alaraq çıxışında bütün region üçün son dərəcə mühüm önəm kəsb edən “Cənub qaz dəhlizi” layihəsi haqqında da söhbət açdı. 2020-ci il dekabrın 31-də həmin layihənin sonuncu hissəsi olan Trans-Adriatik boru kəmərinin istismara verildiyini xatırlatdı. Avropanın enerji təhlükəsizliyinin mühüm meyarı kimi bunu Azərbaycan, qonşularımız və Avropa üçün böyük tarixi nailiyyət kimi qiymətləndirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan qazı ilə təchiz edilən ölkələrdə nə qaz böhranı, nə qiymət böhranı və nə də soyuqdan donma var. “Bu, göstərir ki, “Cənub qaz dəhlizi” Avropa üçün əsl enerji təhlükəsizliyi layihəsidir. Azərbaycan məsuliyyətli ölkə, hasilatçı və ixracatçı kimi, - hazırda tək nefti deyil, qazı da ixrac edirik, - gələcəkdə enerji təhlükəsizliyi məsələlərində çox mühüm rol oynayacaq”.

VIII Qlobal Bakı Forumu bir həqiqəti ortaya qoydu ki, pandemiya ilə bağlı vəziyyət, bu durum ətrafında özünü göstərən reallıqlar dünyanın gələcəyi ilə bağlı qarşıda yeni vəzifələr qoyur. Dəyişən dünya indi ölkələrdən kəskin rəqabət, gərgin münaqişələr, xırda maraqlar üzündən yolları ayırmaq əvəzinə daha sıx əməkdaşlıqlar qurmağı, qarşılıqlı fayda imkanlarını dəyərləndirməyi, bəşəriyyətin rifahına birgə töhfələr verməyi tələb edir.

*Azərbaycanın beynəlxalq təşəbbüsləri bütün dünya ölkələri üçün bu xoş niyyət ətrafında bir araya gəlmək, keçmişə, bu günə və gələcəyə daha aydın nəzərlərlə baxmaq üçün imkandır. Bu baxımdan VIII Qlobal Bakı Forumu beynəlxalq birliyin rəmzi oldu.*

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

Azərbaycan.- 2021.-12 noyabr.- S.8.